

**SƏN SANMA ƏKİZ AY VƏ ƏKİZ ULDUZUMUZ VAR,**
**BİR AYLI, BİR ULDUZLU BÜTÖV BİR ULUSAM MƏN.**
**KÖKSÜMDƏ DUMAN DUSTAĞI OLMUŞ AYA BAXMA,**
**YASDAN ÇIXACAQ AĞ GEYİNƏN QURTULUŞAM MƏN.**

QURTULUŞ

GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY
1990

## Güneydə qaldırılan Milli Simgeylə bağlı

## Güney Azərbaycan Qurtuluş Partiyasının bildirişi

**Ulu Azərbaycan Türk Millətinin bilgisinə!**

**Əziz millətimiz!**

Neçə aydan bəri ilk dəfə "Müxtəsər Azərbaycan Tarixi" kitabında sərgilənmiş Azərbaycan bayrağının ***"qara ay-ulduzlu"*** seçənəyi, Azərbaycan Milli Hərəkatı fəalları tərəfindən Güneyin milli-qurtuluş hərəkatının simgəsi olaraq seçilmişdir. Güney Azərbaycan Qurtuluş Partiyası 2008-05-17 –ci gündə verdiyi bildirişdə bu simgənin kimliyi haqda gərəkli açıqlama vermiş və çox titizliklə **bağımsız milli fəallarımızın** bilimsəl və məntiqsəl hərəkətlərini izləmişdir.

Güneydə canla – başla, Panfaşist fars rejiminə sinəgərən bağımsız millətçilər tərəfindən 2008-07-03 –də yayılan ***Milli Simgə bildirişi*** çox az bir zaman içində, ufaq-təpə etirazlara baxmayaraq, geniş alanda Türk millətçi və bütövçü qurum,

quruluş, ulusal şəxsiyyətlər vərindən alqışlanmışdır.

Qurtuluş Partiyası, İlk bildirişdə də, açıqladığı kimi, Güneydə, hər hansı dalğalanan, səslənən, sərgilənən və çoxunluğun bəyənisini qazanan ulusal simgələr qarşısında sorumluluq daşıyır. Və ulusumuz içində, bu sorumluluğu sürülməsində özünü borclu sanır.

QURTULUŞA görə, Bayraq va ya simgə tartışmalarının bir neçe kiçik yanaşım dışında çox mədəni və Güney Azerbaycan Milli Hərəkatına yaraşan səviyyədə sürməsi, başlı-başına Azerbaycan üçün bir gazanc olmuşdur. Bugün Azərbaycan topraqları işğal altında və milləti zorla farslaşdirilirkən, Güneyin siyasi fəallarının enerjisini ayrılığa deyil, birliyi sağlayacaq nöqtələrə ehtiyac vardır. Elə buna görə, Günüy Azərbaycan Qurtuluş Partiyası olaraq, bağımsız fəallarımız tərəfindən önərilən **Milli Simgəni** dəstəkləmək qərarı aldığımızı bildiririk. Umarıq zaman keçmədən və daha çox həzinə vermədən ***/Dildə,Fikirdə,İşdə Birliyimiz/*** siyasi mücadilədəki praktiyimizə də yamsısın. YOXSA FAŞİST FARS ŞOVİNİZMİLƏ TƏKBAŞINA SAVAŞMAQ bizi istənilən amaca götürəməz.

Güneydə qaldırılan **Milli Simgə** haqqında kifayət qədər olumlu yanaşım olduğuna görə, bu haqda geniş bilgi verməyə ehtiyac duymadan, yalnız 6 qonuya toxunaraq əziz ulusumuzun diqqətini QURTULUŞUN ilkin bildirişinə çəkirik.

1. Simgenin **Milli Bayrağımızla** eyni kimlik daşıması, bütövlük ideyasının anlamıdır.
2. Simgənin milli təşkilatlar vərindən deyil, bağımsız millətçilər tərəfindən verilməsi, onun geniş alanda olumlu qarşılanmasının təməl nədənidir.
3. Bir anlamda, ***qara ay-ulduz*****,** ***ağ ay-ulduzun*** ziddidir. Bunun anlamı isə, Güneydə bağımlı, Quzeydə bağımsız olduğumuzdur. Bu ap-aydın gərçəyi görmədən, duyğu dünyasında Bütöv Azərbaycan xəritəsi cızanlarla işimiz yoxdur! Güneydə **Milli Simgən**i qaldıranların doğru düşüncəsinə görə, Bütöv Azərbaycan aşamasına gəlincə, qara ay ulduz öz ziddinə çönərək ağ ay-ulduzlu Milli Bayrağımızla eyniləşəcək.
4. Güneydə seçilən **Milli Simgə,** heç bir bəlli təşkilat tərəfindən ortaya qoyulmamışdır. Qurtuluş Partiyası, bu simgəni **Milli Bayrağımızla** yanaşı, yalnız bir simvol kimi öz sitələrində yerləşdirmiş və o **simgə haqda, heç**

**<u>yiyələnmə idiası olmamışdır.</u>**

5. Bir daha qeyd edirik ki, bu simgə ilk dəfə olaraq 1999-ci ildə bütövçü yazar və araşdırıcı soydaşımız, sayın ***Arazoğlunun*** *<u>"Müxtəsər Azərbaycan Tarixi"</u>* kitabında basılmış, rəhmətli Ə. Elçibəyin müşahidəsindən sonra ***"Bütöv Azərbaycan Birliyi"***(BAB) tərəfindən geniş sayda yayılmışdır.

6. Əslində, Güneydə gedən dövlətçilik uğrunda milli-siyasi hərəkatın kəsinliklə bir milli simgəyə yiyələnmə gərəyi, siyasi məntiqdən yana olan böyük kəsimin ortaq düşüncəsidir. Bu üzdən, sorumluluğu üzərinə alan gənc milliyytçilərin bu şərəfli işləri, özünü Güney hərəkətcisi sayan hər kəsin vicdan və bütövçülük borcudur.

Güney Azərbaycan Qurtuluş Partiyası

Yönətim Qurulu

2008-08-25